Azərbaycan Respublikası Dövlət Neft Fondunun
2015-ci il büdcəsi haqqında

Azərbaycan Respublikası Prezidentinin
Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2015-ci il büdcəsini formalaşdırmaq və Fondun valyuta vəsaitinin səmərəli idarə edilməsini təmin etmək məqsədilə **qərara alıram**:

1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2015-ci il büdcəsinin gəlirləri **10 246 611,9** min manat, xərcləri isə **11 813 909,2** min manat məbləğində təsdiq edilsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2015-ci il büdcəsinin gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlir mənbələri | Gəlirlərin məbləği (min manat) |
|---|---|---|
| 2.1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərti ilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçiləri, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 9 741 175,6 |
| 2.2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün ödənilən akrhesabı | 1 568,4 |

| | | |
|---|---|---|
| 2.3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər | 9 410,4 |
| 2.4. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər | 494 357,5 |
| 2.5. | Qanunvericiliyə uyğun olaraq digər gəlirlər və daxilolmalar | 100,0 |
| | **Cəmi** | **10 246 611,9** |

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2015-ci il büdcəsinin xərcləri aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərc istiqamətləri | Xərclərin məbləği (min manat) |
|---|---|---|
| 3.1. | Qaçqınların və  məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi | 150 000,0 |
| 3.2. | Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsinə transfert | 10 388 000,0 |
| 3.3. | Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi | 90 000,0 |
| 3.4. | Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsi | 111 487,0 |
| 3.5. | 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsi | 44 088,0 |
| 3.6. | Cənub Qaz Dəhlizi layihələrində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi | 997 016,2 |
| 3.7. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 33 318,0 |
| | **Cəmi** | **11 813 909,2** |

4. “Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin 2015-ci ildə istifadəsinin əsas istiqamətləri (proqramı)” təsdiq edilsin (əlavə olunur).

5. “Azərbaycan Respublikasının Dövlət Neft Fondunun 2015-ci ildə idarə edilməsi ilə bağlı xərclər smetası” təsdiq edilsin (əlavə olunur).

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 yanvar 2015-ci il.

Əlavə 1

Azərbaycan Respublikası Prezidentinin
2015-ci il 19 yanvar tarixli Fərmanı
ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin 2015-ci ildə istifadəsinin əsas istiqamətləri (proqramı)

### 1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin xərc istiqamətləri

1.1. Qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi;

1.2. Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsinə transfert;

1.3. Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi;

1.4. Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsi;

1.5. 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsi;

1.6. Cənub Qaz Dəhlizi layihələrində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi.

### 2. Azərbaycan Respublikası Dövlət Neft Fondunun İnvestisiya siyasəti

#### 2.1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun investisiya siyasətinin məqsədi

2015-ci ildə Neft Fondu əsas kapitalın itirilməsi riskinin aşağı olması şərti ilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasətini həyata keçirəcəkdir.

#### 2.2. Azərbaycan Respublikası Dövlət Neft Fondunun investisiya portfeli

### 2.2.1. İnvestisiya portfelinin proqnozlaşdırılan həcmi

2015-ci il üzrə Neft Fondunun investisiya portfelinin proqnozlaşdırılan məcmu dəyəri (orta çəkili həcmi) **28,2** milyard manata bərabər götürülür. İnvestisiya portfelinin məcmu dəyəri Neft Fondunun büdcəsində təsdiq edilmiş xərclərin aparılması üçün konvertasiya edilərək manat hesablarına köçürülmüş vəsait çıxıldıqdan sonra qalan xarici valyutada ifadə olunan aktivlərin aylıq olaraq yenidən qiymətləndirilməsi əsasında müəyyən edilir.

### 2.2.2. İnvestisiya portfelinin valyuta tərkibi

Neft Fondunun investisiya portfelinin baza valyutası ABŞ dolları müəyyən edilir. Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin:

- 50 faizi ABŞ dollarında ifadə olunan aktivlərə;
- 35 faizi AVRO-da ifadə olunan aktivlərə;
- 5 faizi İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə;
- qalan 10 faizi isə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"ın 2.2.1-ci yarımbəndində nəzərdə tutulmuş valyutalarda ifadə olunan aktivlərə yerləşdirilə bilər.

### 2.2.3. İnvestisiya portfelinin alt portfelləri

Neft Fondunun investisiya portfeli aşağıdakı alt portfellərdən (bundan sonra "portfel") ibarətdir:

- borc öhdəlikləri və pul bazarları alətləri portfeli – investisiya portfelinin məcmu dəyərinin minimum 80 faizi;
- səhm (pay) portfeli – investisiya portfelinin məcmu dəyərinin maksimum 10 faizi;
- daşınmaz əmlak portfeli – investisiya portfelinin məcmu dəyərinin maksimum 5 faizi;
- qızıl portfeli – investisiya portfelinin məcmu dəyərinin maksimum 5 faizi.

### 2.2.4. İnvestisiya portfelinin hədəf gəlirliliyi

2.2.4.1. Neft Fondunun borc öhdəlikləri və pul bazarları alətləri portfelinin idarə edilməsinin hədəf gəlirliliyi (bençmark) kimi Britaniya Bankirlər Assosiasiyası tərəfindən müvafiq valyuta (AVRO istisna olmaqla) üzrə dərc edilmiş 3 (üç) aylıq LIBOR faiz dərəcəsi götürülür.

2.2.4.2. Neft Fondunun borc öhdəlikləri və pul bazarları alətləri portfelinin AVRO-da ifadə olunan aktivlərinin idarə edilməsində hədəf gəlirliliyi (bençmark) kimi 3 (üç) aylıq EURİBOR faiz dərəcəsi götürülür.

2.2.4.3. LİBOR dərəcəsi mövcud olmayan valyutalar üzrə hədəf gəlirliliyi kimi maliyyə bazarında banklar arasında 3 aylıq kreditlər üzrə ən geniş yayılmış faiz dərəcələri istifadə edilə bilər.

2.2.4.4. Səhm (pay) portfelinin hədəf gəlirliliyi (bençmark) kimi MSCI World İndex-i götürülür.

## 2.3. Risklərin idarə olunması üzrə tələblər

### 2.3.1. Faiz dərəcəsi riski

Neft Fondunun borc öhdəlikləri portfelinin faktiki ortaçəkili investisiya müddəti (durasiyası) dünya bazarlarındakı cari vəziyyətdən asılı olaraq Fond tərəfindən müəyyən edilir və 48 ayı üstələməməlidir.

### 2.3.2. Kredit riski

Neft Fondunun valyuta vəsaitinin yerləşdirildiyi investisiya aktivlərinin kredit reytinqi Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"a uyğun olmalıdır. Bir maliyyə qurumunun (depozitar banklar istisna olmaqla) və ya bir investisiya aktivinin investisiya portfelindəki maksimal xüsusi çəkisi investisiya portfelinin məcmu dəyərinin 15 faizi həddində müəyyən edilir.

### 2.3.3. Likvidlik üzrə tələblər

Neft Fondunun vəsaitinin likvidlik dərəcəsi Fondun büdcə xərcləri üzrə planlaşdırılan pul və digər köçürmələrinin tam və vaxtında yerinə yetirilməsini təmin etmək üçün yetərli səviyyədə olmalıdır. Bu səviyyəni təmin etmək məqsədilə Neft Fondunun vəsaitinin 100 milyon ABŞ dollarından az olmayan hissəsi yüksək likvidliyə malik qısamüddətli pul bazarları alətlərində saxlanmalıdır. Bu vəsaitin göstərilən məbləğdən az olması halı 7 iş günündən çox davam etməməlidir.

2.3.4. Xarici menecerlər üzrə tələblər

2.3.4.1. Xarici menecerlərə idarəetməyə verilən vəsaitin ümumi həcmi investisiya portfelinin məcmu dəyərinin 60 faizindən, bir xarici menecerə idarəetməyə verilən vəsaitin maksimum həcmi investisiya portfelinin məcmu dəyərinin 5 faizindən artıq olmamalıdır. Neft Fondunun RAMP proqramı çərçivəsində Dünya Bankının xəzinədarlığına idarəetməyə verilən vəsaitlərinin həcmi 500 milyon ABŞ dollarından artıq olmamalıdır.

2.3.4.2. Neft Fondunun vəsaitinin idarə edilməsinə cəlb edilən xarici menecerlərin səlahiyyətləri və idarəetməyə verilmə müddəti Neft Fondu ilə bu menecerlər arasında bağlanan sazişdə əks etdirilməlidir.

Əlavə 2

Azərbaycan Respublikası Prezidentinin
2015-ci il 19 yanvar tarixli Fərmanı
ilə təsdiq edilmişdir

Azərbaycan Respublikası Dövlət Neft Fondunun
2015-ci ildə idarə edilməsi ilə bağlı xərclər smetası

| № | Xərclər | Kod | Məbləğ (manat) |
|---|---|---|---|
| 1 | ƏMƏYİN ÖDƏNİŞİ | 210000 | 5,914,800 |
| 2 | MALLARIN (işlərin və xidmətlərin) SATIN ALINMASI | 220000 | 3,724,600 |
| 3 | QRANTLAR VƏ DİGƏR ÖDƏNİŞLƏR | 260000 | 300,000 |
| 4 | TƏQAÜDLƏR VƏ SOSİAL MÜAVİNƏTLƏR | 270000 | 100,000 |
| 5 | DİGƏR XƏRCLƏR | 280000 | 7,289,000 |
| 5.1 | İcarə və muzdlu xidmətlər | 281400 | 200,000 |
| 5.2 | Sair xərclər | 282100 | 5,474,000 |
| 5.3 | Bank xərcləri | 282300 | 1,615,000 |
| 6 | QEYRİ-MALİYYƏ AKTİVLƏRİNİN ALINMASI | 310000 | 15,989,600 |
| 6.1 | Bina və tikililər | 311100 | 10,000,000 |
| 6.2 | Maşın və avadanlıqlar | 311200 | 226,600 |
| 6.2 | Qeyri-istehsal aktivləri | 314400 | 5,763,000 |

| | |
|---|---|
| XƏRCLƏRİN CƏMİ | 33,318,000 |